

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 135 (21.036)

17 iyul 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının açılışında iştirak edib.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov burada görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı stansiyanın idarəetmə mərkəzində oldu.

Prezident İlham Əliyevə Suraxanı Günəş Elektrik Stansiyasının göstəriciləri barədə məlumat verildi.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 2015-ci ilədək inkişaf layihələri ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, respublikanın müxtəlif bölgələrində ümumi qoyuluş gücü 300 meqavat olan elektrik stansiyalarının inşası nəzərdə tutulub.

Sonra Prezident İlham Əliyev kollektivlə xatirə şəkli çəkdirdi.

Görülən işlərlə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Riçard Morninqstarı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

## 2014-cü ilin ilk 6 ayının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 2014-cü ilin birinci yarısının yekunları və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulmuş vəzifələrlə bağlı kollegiya iclası keçirilmişdir.*

İclası komitənin sədri Malik Rzayev açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, hesabat dövründə 154 təsərrüfat subyektinə standartların məcburi tələbləri barədə maarifləndirici məktub göndərilmişdir. Ticarət obyektlərində 71425,52 manat dəyərində standartların tələblərinə uyğun olmayan, yararlılıq müddəti bitmiş və digər patentləşdirilmiş əmtəə nişanı adı altında keyfiyyətsiz məhsulların satışının qarşısı alınmışdır. Markalanma ilə bağlı standartın tələbləri pozulduğundan 6 istehsal müəssisəsində 197 min 13 ədəd etiket makulatura məqsədilə götürülərək 52 min 544 ədədi təkrar emala verilmiş, 144 min 469 ədəd etiket və 1 paketləmə sexində markalanması standartların tələblərinə uyğun olmadığından 18524,12 manat dəyərində 2847 kiloqram paket məhv edilmişdir.

"Təhsil və məktəbəqədər təhsil müəssisələrində yeməkxanalara alınan ərzaq məhsullarının keyfiyyətinə və onların yerli məhsul olmasına nəzarəti təmin etmək məqsədilə aidiyyəti orqanlarla birlikdə 88 təhsil, 4 səhiyyə müəssisəsində, 4 mərkəzdə və Ahıllar evində araşdırmalar aparılmışdır", – deyən komitə sədri vurğulamışdır ki, araşdırma zamanı 1334,82 manat dəyərində markalanması standartların tələblərinə uyğun gəlməyən və uyğunluq sertifikatı olmayan yararsız məhsullar satışdan çıxarılaraq yeni məhsullarla əvəz olunmuşdur.

Bildirilmişdir ki, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın müvafiq bəndlərinin icrası ilə əlaqədar 20 adda məhsul sertifikatlaşdırılmış, 5 müəssisədə istehsal olunan 51 adda məhsulun etiket layihələri texniki normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmış, 3 müəssisənin özünəməxsus əmtəə (xidmət) nişanının qeydiyyata alınması üçün ekspertizası aparılmışdır. 18 topdansatış məntəqəsində, 1 istixana, 5 bostanda və 1 anbarda 51 halda meyvə-tərəvəz məhsullarının laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartın tələblərinə uyğun olduğu müəyyən edilmişdir. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı 7 istixanada monitorinq həyata keçirilmiş, satış yerlərində satılan 48 halda məhsullarda nitratın miqdarı yoxlanılmışdır. 6 texniki şərt qeydiyyata alınmış, 32 müəssisədə istehsal olunan 147 adda qida məhsullarının etiket layihəsi texniki normativ-hüquqi aktlara uyğun hazırlanmışdır. Qida məhsulları istehsal edən 115 müəssisədə istehsal olunan məhsullara 110 ədədi milli standartlara, 52 ədədi dövlətlərarası standartlara və 5 ədədi texniki şərtlərə uyğun olmaqla, 167 uyğunluq sertifikatı verilmişdir.

Qeyd olunmuşdur ki, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq, aidiyyəti orqanların nümayəndələrinin iştirakı ilə ictimai-iaşə sahəsi ilə bağlı 2, lavaş istehsalı ilə bağlı 2, ticarət obyektləri ilə bağlı 3, məişət xidməti obyektləri ilə, müəllim, tələbə, məktəbli formaları və beton divar daşı istehsalı ilə bağlı peşə standartlarının tətbiqi barədə 10 maarifləndirici seminar keçirilmişdir. Komitənin 2014-cü ilin iş planına uyğun olaraq, ötən yarımildə keyfiyyətin idarə olunması istiqamətində təsərrüfat subyektləri tərəfindən müəyyən edilmiş standart və normativlərə əməl olunmasına nəzarət aparılması üçün struktur bölmələr tərəfindən 267 istehsal müəssisəsində müşahidə xarakterli monitorinq aparılmışdır. Monitorinqlər zamanı 197 istehsal müəssisəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədilə şifahi irad bildirilmiş, 1 sexdə texniki normativ-hüquqi aktların tələblərinə uyğun şəraitin olmadığı və 1 sexdə istehsal olunan məhsulun əmtəə görünüşünün standartın tələblərinə cavab vermədiyi aşkar olunmuş, 11 sexdə isə nöqsanlar aradan qaldırıldığından məhsul istehsalına icazə verilmişdir. Ekspert komissiyasının qərarlarına əsasən, 392 ədədi ərzaq, 1286 ədədi qeyri-ərzaq məhsulu olmaqla, 1678 ədəd uyğunluq sertifikatı verilmişdir.

Sonra məruzə ətrafında komitə əməkdaşlarından Əli Şərifovun, Pəncalı Hüseynovun və Müşfiq İbrahimovun çıxışları olmuşdur.

Tədbirə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Malik Rzayev yekun vurmuşdur.

*İyulun 16-da Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində 2014-cü ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda agentliyin Baş direktoru Yasin Səfərov məruzə ilə çıxış edərək bildirmişdir ki, muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər birinci yarımildə də davam etdirilmiş, Şərur rayonu ərazisində gücü 20,5 meqavat olan "Arpaçay-1" və gücü 1,4 meqavat olan "Arpaçay-2" Su Elektrik stansiyaları istismara verilmişdir.*



2014-cü ilin ilk 6 ayında Babək rayonunda 35/10 kilovoltluq ikitransformatorlu 1260 kva güclü 35/10 kilovoltluq "Kərimbəyli" yarımstansiyasında ən müasir avadanlıqlar qoyulmaqla yenidənqurma işləri davam etdirilmişdir.

Qeyd olunmuşdur ki, cari ilin birinci yarısında muxtar respublikanın elektrik şəbəkələrinə 352 milyon 36 min 990 kilovat-saat elektrik enerjisi daxil olmuşdur. Bunun 31 milyon 895 min kilovat-saatı İran İslam Respublikasından, 77 min 990 kilovat-saatı Türkiyə Respublikasından alınmış, 32 milyon 253 min 600 kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 234 milyon 354 min kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 299 min kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında, 25 milyon 711 min 400 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 24 milyon 157 min kilovat-saatı "Arpaçay-1" Su Elektrik Stansiyasında, 351 min kilovat-saatı "Arpaçay-2" Su Elektrik Stansiyasında, 2 milyon 938 min kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında istehsal edilərək elektrik şəbəkələrinə verilmişdir. Ötən 6 ay ərzində Türkiyə Respublikasına 102 milyon 608 min 670 kilovat-saat, İran İslam Respublikasına 34 milyon 291 min kilovat-saat elektrik enerjisi ötürülmüşdür.

Vurğulanmışdır ki, 2014-cü ilin birinci yarısında muxtar respublikanın ayrı-ayrı yaşayış məntəqələrində, ümumilikdə, 10 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 30 kilometr uzunluğunda yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 16 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilmişdir. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 60 ədəd 35/6-10 və 10/0,4 kilovoltluq transformator təmir edilib şəbəkələrə qaytarılmışdır.

2014-cü ilin ilk 6 ayında 7 faiz texniki itki nəzərə alınmaqla işlədicilərə dəyəri 11422,02 min manat təşkil edən 190367 min kilovat-saat elektrik enerjisi ötürülmüşdür. Bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq uçotunu aparmaq üçün digital elektron sayğaclar quraşdırılmış, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir. Elektrik enerjisi satışından 11306,2 min manat vəsait toplanmış, enerjinin dəyərinin ödənilməsi 98,99 faiz olmuşdur.

Kollegiya iclasında işdə buraxılan nöqsanlar da təhlil olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında Araz Su Elektrik Stansiyasının direktoru Nadir İsmayıllının, Yüksəkgərginlikli Elektrik Şəbəkəsinin baş mühəndisi Nəriman Paşayevin, Naxçıvan Şəhər və Ordubad Rayon Elektrik şəbəkələrinin direktorları İqrar Əliyevin və Ramazan Rzayevin çıxışları olmuşdur.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov yekun vurmuşdur.

## Cari ilin ötən dövründə muxtar respublikada 1357 nəfər işlə təmin olunub

Əhalinin məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqıödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, blokada şəraitində yaşaya-yaşaya böyük uğurlara nail olmaq mümkündür. İndi regionda əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın 2.3-cü bəndinə əsasən, xidmət tərəfindən cari ilin ilk 6 ayında Naxçıvan şəhərində və rayon mərkəzlərində iki dəfə əmək yarmarkaları keçirilmişdir. Əmək yarmarkalarına 320 idarə, müəssisə və təşkilatdan 3120 boş iş yeri təqdim olunmuş, 519 nəfər işaxtaran öz peşə və ixtisasına uyğun işlə təmin olunmuş, 4 nəfər peşə hazırlığı kurslarına cəlb edilmiş, 15 nəfər haqqıödənilən ictimai işlərə, 18 nəfər sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxs isə kvota yerinə göndərilmişdir.

Dövlət proqramının icrasına uyğun olaraq, tətil günlərində 9 tələbə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində, 5 tələbə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində, 7 tələbə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində öz ixtisasları üzrə işlə təmin olunmuş, 6 tələbə isə mövsümi xarakterli işlərə göndərilmişdir.

Ümumilikdə, ilin ötən dövrü ərzində 1357 nəfər işlə təmin olunmuşdur.

**Xəbərlər şöbəsi**

# Hər açılan sabah Sədərəyin yeni uğurlarından soraq verir

***Şərurdan çıxıb üzü Sədərəyə tərəf uzanan geniş asfalt yol bizi Heydərabad qəsəbəsinə aparır. Bu yolun hər döngəsinə, hər qarışına bələdəm. Bir vaxtlar burada gedən amansız döyüşləri yaxşı xatırlayıram. Aradan 24 il keçib. Ancaq müharibənin yaddaşlarda dərin izləri qalıb.***

1990-1993-cü illərdə ermənilər 14 dəfə Sədərəyə hücum ediblər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Təkcə 1990-cı il mart ayının 28-də Ermənistan tərəfdən Sədərəyə 300-ə yaxın top mərmisi atılıb. Bu müddət ərzində ərazidə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıdılıb. Qədim yurd yerinin müdafiəsi vətənpərvər oğulların üzərinə düşüb. Muxtar respublikanın rayonlarından gələn igid eloğullarımız burada böyük qəhrəmanlıqlar göstəriblər. Həmin illərdə muxtar respublikamızın bütün bölgələrindən, həmçinin ölkəmizin 12 rayonundan Sədərəyə kömək gəlib. Qeyri-bərabər döyüşlərdə 500-ə yaxın adam yaralanıb. 108 nəfər eloğlumuz şəhidlik zirvəsinə ucalıb ki, onlardan 52-si sədərəklidir. Qanlı döyüşlərdə qəhrəmanlıq göstərən polis kapitanı Məhərrəm Seyidov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bəli, bunlar ən yaxın keçmişimizin müharibə xronikasıdır.

İndi atəşkəs dövrü olsa da, arasıra eşidilən güllə səsləri adamların qurub-yaratmaq əzmini, doğma yurdun hər qarışını gülüstana çevirmək həvəsini qətiyyən zəiflətmir. Əksinə, hər kəsin qəlbindəki vətənpərvərlik hissini alovlandırır, sakinləri Sədərəyi daha əzmkarlıqla tikib-qurmağa ruhlandırır.

Bu bölgədə diqqətçəkən əsas cəhət də adamlardakı yüksək əhval-ruhiyyə, yenilməz inam hissidir. Rayon sakinləri böyük qələbənin tezliklə gerçəkləşəcəyinə inanırlar. İnanırlar ki, onların firavan həyatı, yaxşı dolanışığı üçün qayğı və diqqətini əsirgəməyən, Qarabağ problemini özünün çoxsahəli fəaliyyətində həmişə prioritet məsələ hesab edən ölkə Prezidenti cənab İlham Əliyev müdrik siyasəti və yenilməz iradəsi ilə bu düyünü uğurla açacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır. Sədərək camaatı məhz belə yüksək əhval-ruhiyyədədir. Bunu rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Teymur Quliyevlə söhbətdən də duyduq:

– Əvvəlcə onu deyim ki, Heydər Əliyev dühası Sədərəyi erməni işğalından hifz etdi. Siz də yaxşı bilirsiniz ki, bu bölgədə, bu torpaqda nələr yaşanmışdır. Bütün bunlar öz yerində. İndi biz qurub-yaradır, əkib-becərməklə məşğul oluruq. Sərhədlərimizi göz bəbəyi kimi qoruyan əsgərlərimizə, Silahlı Qüvvələrimizə güvənirik. Bu gün hər bir sədərəkli əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında üzərinə düşən məsuliyyətli missiyanın öhdəsindən layiqincə gəlməyə, torpaqlarımızı düşmən işğalından azad etməyə tam qadirdir.



### Sədərək kəndlisi ulu ozan Dədə Qorqudun nəsihətinə əməl edir

Havalar kifayət qədər istiləşsə də, Sədərək torpağı yazın səfalı çağını xatırladır. Yol kənarlarında ot qurşağa qalxır. Ağacların yarpaqlarının açıq-yaşıl rəngi də yaz ovqatı doğurur. Sədərəyə doğru irəlilədikcə Ağrı dağının zirvəsindən süzülüb gələn dağ havası yayın oğlan çağında ciyərlərimizə qəribə sərinlik gətirir.

Ətrafdakı yamyaşıl tarlalar, bardan budağını əyən ağaclar sanki ötüb-keçənlərə bərəkət nəğməsi oxuyur. Örüşlərə yayılan sürülər, naxırlar əmin-amanlıq əhvalını artırır. Yolkənarı tikililərin müasir dizaynı, yaraşıqlı görünüşü adama sərhəd bölgəsində, düşmənin 5 addımlığında olduğunu unutdurur.

Bu əhvalla Sədərək kəndinin mərkəzindəki qocaman çinar ağacının altında dayanırıq. Ağacın iriyarpaqlı budaqları nəhəng bir yelpik kimi ətrafa sərinlik bəxş edir. Qarşı tərəfdən çıxıb bizə yaxınlaşan Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımovla hal-əhval tuturuq. Yol boyu yaranan təəssüratımızı bölüşürük. Arif Qasımov "yaz əhvalı"nın səbəbini açıqlayaraq bildirir ki, bu yay tez-tez yağış yağması, bir də Şir arxı üzərində yeni nasos stansiyasının qurulması əkinləri, bağ-bağatları belə təzə-tər, yaşıl saxlayıb. Bu il məhsul ilidir. Adamlar da, sağ olsunlar, gecə-gündüz əkin-biçinin üstündədirlər. Bu il daha çox məhsul gözlənilir...

Bu vaxt Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Bəxtiyar Mahmudov və İcra Hakimiyyətinin məsul işçiləri də maşından düşüb qoca çinarın qara kölgəsinə gəlirlər. Bəxtiyar Mahmudov:

– Qaraağac kəndindən gəlirik. Əslində, həmişə camaatın içərisində oluruq. Bu görüşlər isə məxsusi hesabat xarakteri daşıyır. İrili-xırdalı problemləri öyrənib yerindəcə ən yaxın müddətə həll edirik. Adamların işimizə verdikləri qiymət bizim üçün əsasdır.

Sədərəyin barıt qoxan qanlı-qadalı o günlərini xatırlayanda, bu gün gözqamaşdıran gözəlliyi ilə üzə gülən növrağına baxanda istər-istəməz ulu ozan Dədə Qorqudun məşhur bir deyimi yada düşür: "Torpağı qorumasan, əkib-becərməyə, əkib-becərməsən, qorumağa dəyməz..."

Əzəli və əbədi yurd yerlərini böyük qurbanlar bahasına Ermənistan silahlı qüvvələrinin caynağından xilas edən sədərəklilər bu torpağın hər qarışının qədrini bilir, kimsəyə əl açmamaq, muxtar respublikanın ərzaq təhlükəsizliyinin təminatına sanballı töhfələr vermək üçün əzmlə çalışır, bol məhsul istehsal edirlər. Müharibə şəraitində yaşayan bir ölkədə çörək elə silah qədər əhəmiyyətlidir. Bu həyat həqiqətini dərk edən rayonun torpaq mülkiyyətçiləri keçən il 6 min 142 ton taxıl istehsal etmişdilər. "Sarı kəhrəba" ustaları taxıl istehsalını yaxın illərdə 10 min tona çatdırmağı qarşılarına məqsəd qoyublar. Bölgənin torpaq mülkiyyətçiləri kartof, bostan-tərəvəz, meyvə, ət, süd, yun, yumurta istehsalında da böyük uğurlar qazanırlar. Təbii ki, məhsul bolluğu bu regionun zənginləşməsinə, insanların sosial rifahının durmadan yaxşılaşmasına xidmət edir.

Bu gün Sədərək kəndlisi ulu ozan Dədə Qorqudun yuxarıda xatırlatdığımız, bütün zamanlar üçün aktual olan müdrik kəlamının dəyərini öz yenilməz hünəriylə təsdiq edir. Hər kəsin görə biləcəyi reallıqdır ki, bu qədim yurd yeri göz bəbəyi kimi qorunur, qayğı ilə əkilib-becərilir, onun hər qarışı böyük zəhmət, alın təri bahasına cənnətə döndərilir.

### Heydərabad qəsəbəsi şəhər timsalındadır

Son vaxtlar Heydərabad qəsəbəsinə yolu düşənlər sevinc və təəccüb hisslərini gizlədə bilmirlər. Özü də bu sevinc və təəccübə səbəb təkcə onların göz-könlünü oxşayan yenilik, abadlıq və gözəllik deyil. Bizcə, burada başqa bir səbəb də var: aparılan tikinti-quruculuq işlərindəki yüksək zövq və müasirlik. Qəsəbə öz simasını tamamilə dəyişib: yeni binalar tikilib, yollar, səkilər salınıb, park və bağlar yaradılıb. Bu gün Heydərabad qəsəbəsində elə bir ictimai və yaşayış binası tapmaq olmaz ki, əsaslı şəkildə təmir və bərpa edilməsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamından sonra sərhəd bölgəsində görülən işlər öz vüsəti ilə diqqəti çəkir. Ümummilli liderimizin adını daşıyan Heydərabad qəsəbəsinin abadlaşdırılaraq müasir rayon mərkəzinə çevrilməsi rayonun simasını xeyli dəyişib, ona yaraşıqlı görkəm verib.

2010-cu ilin oktyabr ayında muxtar respublikaya səfəri zamanı ölkə Prezidenti cənab İlham Əliyev yenidən qurulan Heydərabad qəsəbəsinin açılışında iştirak edib, burada görülən işləri yüksək qiymətləndirib: ***"... Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublikanın rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir".***

Son illər dövlətin davamlı qayğısından güc alan, doğma yurdu canından artıq sevən insanların fədakarlığı qəsəbəni şəhərə çevirib desək, qətiyyən yanılmarıq. Şəhərlərə xas olan xüsusiyyətlər indi Heydərabadda var.

Bəli, sərhəd bölgəsində düşmənlə üzbəüz dayanan, onun gözünə ox kimi batan, gündən-günə böyüyən, gözəlləşən Heydərabad öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Sədərəklilər, o cümlədən Heydərabad qəsəbəsinin sakinləri bu yüksəliş və inkişafı, ilk növbədə, ölkə Prezidentinin və Ali Məclis Sədrinin gündəlik diqqət və qayğısının nəticəsi kimi dəyərləndirir, bu yüksək himayədarlığa bundan sonra da əməli işləri ilə cavab verəcəklərini söyləyirlər.

**Bu gün sərhəd bölgəsi olan Sədərək xaosda boğulan, gün keçdikcə bir az da iqtisadi böhranın uçurumlarına yuvarlanan düşmənin gözü qarşısında sabaha inamla addımlayır. Hər açılan sabah beşaddımlıqda olan düşmənə gözdağına çevrilən Sədərəyin, onun mərkəzi Heydərabadın yeni uğurlarından soraq verir.**

**Cəfər ƏLİYEV**

## "Sirab premium" adlı yeni çeşiddə mineral su istehsalına başlanılıb

### *Xarici bazarda "Sirab" mineral suyuna tələbat artıb*





***"Sirab" Mineral Sudoldurma Zavodunun bazasında yaradılan "Babək Sirab" Açıq Səhmdar Cəmiyyəti əsaslı təmir və yenidənqurma işlərindən sonra 2005-ci ilin noyabr ayında istifadəyə verilmişdir.***

Müasir texnoloji avadanlıqlarla təmin olunmuş bu müəssisədə keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılmışdır. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, istehsal həcminin artırılması və yeni istehsal sahəsinin – qazsız su istehsalı sahəsinin yaradılması üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin fevral ayında 700 min manat, aprel ayında isə 350 min manat güzəştli kredit ayrılmışdır. Bundan sonra bir sıra tədbirlər həyata keçirilmiş, müəssisədəki 625 kvadratmetr sahəsi olan binada əsaslı təmir və yenidənqurma işləri aparılmış, Türkiyə Respublikasının "Ersey Makina" şirkətindən istehsal gücü saatda 11 min ədəd 0,5, 9000 ədəd 1, 8000 ədəd 1,5 litrlik butulkalarda, 5 və 19 litrlik taralarda qazsız su olan müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılmışdır. Müəssisədə müasir texnoloji avadanlıqlarla təmin olunmuş xüsusi bakterioloji laboratoriya istifadəyə verilmişdir. Yeni istehsal sexində lazerlə tarixvurma avadanlığı quraşdırılmışdır ki, bu da ölkəmizdə 3 böyük şirkətdə mövcuddur. Ümumilikdə, yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 1 milyon 350 min manat vəsait sərf olunmuşdur. Bunun da 300 min manatı daxili imkanlar hesabına ödənilmişdir. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilmiş, mart ayında "Sirab premium" adında 4 çeşiddə qazlı və qazsız mineral su istehsalına başlanılmışdır. Qeyd edək ki, "Sirab premium" adı ilə satışa çıxarılan mineral su yüksək keyfiyyəti və qablaşdırma üsulu ilə seçilir.

Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərən kollektiv cari ilin ilk 6 ayında 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,33, 0,5 litrlik şüşə butulkalarda qazlı, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, 3 milyon 464 min 474 ədəd butulka mineral su istehsal etmişdir ki, bunun da 153 min 745 ədədi sifarişə uyğun olaraq muxtar respublika ərazisində, 2 milyon 492 min 742 ədədi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən ayrı-ayrı ticarət obyektlərinə yola salınmış, 817 min 987 ədədi isə Rusiya Federasiyasına, Ukrayna, Belarus, Türkiyə və Latviya respublikalarına göndərilmişdir. Beləliklə, istehsal olunan ümumi məhsulun 5 faizi muxtar respublikada, 71 faizi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində, 24 faizi isə xarici ölkələrdə satışa çıxarılmışdır.

Gələcəkdə digər xarici ölkələrdə də "Sirab" suyunun satışa çıxarılması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**

## Prokurorluq orqanları maarifləndirici tədbirləri davam etdirir

***Növbəti belə tədbir Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Ləkətağ kəndində keçirilmişdir.***

Tədbiri giriş sözü ilə Ləkətağ kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Tural Qafarov açaraq tədbirin mahiyyəti barədə iştirakçılara məlumat vermişdir.

Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov "Təbii qazın, suyun, elektrik enerjisinin talanmasına görə məsuliyyət" mövzusunda çıxış edərək bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində 15 il fasilədən sonra muxtar respublikaya təbii qazın nəqli bərpa olunmuş, yeni elektrik stansiyaları tikilərək istifadəyə verilmişdir.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə, istehlakçılar tərəfindən təbii qaz, su, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulmaqla bu enerji resurslarının talanması, xeyli və külli miqdarda ziyan vurulması cinayət məsuliyyətinə səbəb olur. Bu mənada enerji resurslarından düzgün və qənaətli istifadə etmək hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Culfa rayon prokurorunun köməkçisi Xalid Ağayev çıxış edərək böyüməkdə olan gənc nəslin fiziki və mənəvi inkişafının təmin edilməsində ailənin rolundan, ailə üzvlərinin vəzifələrindən danışmışdır. Vurğulanmışdır ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin həm də vətəndaşlıq borcudur. Qanunvericiliyə uyğun olaraq, ər-arvadın üzərinə ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmaq, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərmək, övladlarının inkişafı üçün əlverişli şərait yaratmaq və onların sağlamlığının qeydinə qalmaq vəzifələri qoyulmuşdur.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

Naxçıvan Muxtar Respublikası – 90

# Naxçıvan səhiyyəsi ötən əsrin 30-90-cı illərində

(əvvəli qəzetimizin 27 may tarixli sayında)

*Naxçıvanda bərpa, sənayeləşmə, kənd təsərrüfatının kollektivləşməsi dövrü (1920-1932-ci illər) başa çatdıqdan sonra muxtar respublika sosialist cəmiyyətinin möhkəmlənməsi dövrünə (1933-1940-cı illər) qədəm qoymuşdur. Bu dövrdə muxtar respublikadakı tibb müəssisələrində çarpayıların sayı 1913-cü ilə nisbətən 10 dəfə artmış, həkim və orta tibb işçilərinin sayı çoxalmışdır. Əgər 1913-cü ildə respublika ərazisində cəmi 5 həkim, 14 orta tibb işçisi var idisə, 1936-cı ildə həkimlərin sayı 32, orta tibb işçilərinin sayı 110 olmuş, başqa sözlə, həkimlərin sayı 6 dəfə, orta tibb işçilərinin sayı 8,5 dəfə artmışdır.*

Kolxoz və sovxoz qurulmasının coşqun vaxtında kənd əhalisinə tibbi-sanitar xidmətin yeni forması təşkil edilmişdir. Şəhər tibb müəssisələrinin hesabına tibbi dəstələr təşkil edilirdi ki, onlar kənd yerlərinə gedərək tarla işləri zamanı kolxozçulara tibbi yardım göstərirdilər.

İkinci Dünya müharibəsi illərində səhiyyə orqanları qarşısında çox mühüm bir vəzifə – ön və arxa cəbhədə yoluxucu xəstəliklərin yayılmasına yol verməmək vəzifəsi dururdu.

Müharibənin ilk illərindən Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı respublikada sanitariya işlərini tələb olunan səviyyədə saxlamaq və yoluxucu xəstəliklərin yayılmasına yol verməmək üçün lazımi tədbirlər görmüşdür. 1942-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasının Xalq Səhiyyə Komissarlığı və onun yerli orqanları yanında epidemiyaya qarşı fövqəladə komissiyalar yaradılmışdır. Bu komissiyalar yerlərdə epidemiyaya qarşı mübarizəni təşkil edir və yaşayış məntəqələrində, iaşə, kommunal və sənaye müəssisələrində, uşaq tərbiyə ocaqlarında sanitariya qaydalarının gözlənməsinə nəzarət edirdilər. Onlar sanitar fəallarının işini əlaqələndirib birləşdirirdilər. Bu işdə Qırmızı Aypara Cəmiyyəti mühüm yer tuturdu.

Müharibə illərində Naxçıvan Tibb Məktəbi orta tibb işçiləri hazırlamaqda idi. Müharibə davam etdiyi müddətdə bu məktəb 153 feldşer, 20 mama, 90 tibb bacısı və 39 əczaçı hazırlamışdır ki, onların da bir çoxu məktəbi qurtaran kimi könüllü olaraq cəbhəyə getmişlər. Həmin məzunlarla yanaşı, həkimlərdən Tofiq Sultanov, Mehdi Bağırov, Abbas Əliyev, Əbdüləli Tahirov, Əkbər İsmayılov, Camal İbrahimov, Əkbər Fəttahov, Valentina Suxova, Abdulla Abdullayev, Əzim Kazımov, Hacı Mehdiyev, Cabbar Cəfərov, orta tibb işçilərindən Dilbər Təhməzbəyova, Zərifə Camalbəyova, Xeyrənsə Abdullayeva, Səfiyyə Sultanova və başqalarının da düşmən üzərində qələbədə müəyyən xidmətləri olmuşdur.

Müharibə illərindən sonrakı dövr Naxçıvan MSSR-də səhiyyə (1946-1953-cü illər) sistemində quruculuq mərhələsi kimi səciyyələnir.

Müharibə illərindən sonra respublikanın səhiyyə orqanlarının əsas vəzifəsi nəinki səhiyyənin şəbəkəsini artırmaq, habelə tibbi xidmətin keyfiyyətini ixtisaslaşdırılmış növ xidmətini inkişaf etdirməklə təmin etməkdən ibarət idi. Bu dövrdə xəstələrin müalicəsini yaxşılaşdırmaq və diaqnozun keyfiyyətini yüksəltmək məqsədilə diaqnostik laboratoriya, fizioterapevtik və rentgen kabinələri təşkil olunmuşdur. Xəstəxanaların və onlarda olan çarpayıların sayı, xüsusilə kənd yerlərində artmışdır. Belə ki, kənd xəstəxanalarının sayı 1945-ci ildəki 7-dən 1953-cü ildə 20-yə, çarpayıların sayı eynilə 90-dan 225-ə çatdırılmışdır. Başqa sözlə, müqayisəli illərdə xəstəxanaların sayı, demək olar ki, 3 dəfə, çarpayıların sayı isə 2,5 dəfə artmışdır.

1953-1965-ci illərdə səhiyyə sistemində, əsasən, kadr hazırlığı diqqət mərkəzində saxlanılmışdır. Bu illər ərzində Naxçıvan Tibb Məktəbi 400-dən çox orta tibb təhsilli kadr hazırlamış, aptek şəbəkəsi inkişaf etdirilmiş, Azərbaycan SSR Baş Apteklər İdarəsinin Naxçıvan rayonlararası şöbəsi yaradılmışdır. 1962-ci ildə respublikada 14 aptek, 50-yə yaxın aptek məntəqəsi, analitik laboratoriya, sanitariya-gigiyena mağazaları fəaliyyət göstərirdi.

Həmin dövrdə muxtar respublikada bir çox həkimlər öz fədakar əməyi ilə xalqın rəğbətini və hörmətini qazanmışlar. Naxçıvanlılar görkəmli səhiyyə işinin təşkilatçılarını – Əli Abbasovu, Nadir Məmmədlini, Həmid Əsədovu, Ələkbər İsmayılovu, Hüseyn Abbasovu, Süleyman Süleymanzadəni, Tofiq Sultanovu, Abbas Əliyevi, Fikrət Qədimovu böyük məhəbbət və minnətdarlıqla xatırlayırlar. Azərbaycan SSR-nin əməkdar həkimi, Naxçıvan MSSR Ali Sovetinin deputatı olmuş Anna Suslova ömrünün 45 ilini Naxçıvanda uşaqların sağlamlığının qorunmasına sərf etmişdir. Ruxsara Bayramova, Mehdi Sultanov, Sultan Sultanov, Yaqub Budaqov, Əkbər Nağıyev, Arif Hacıyev, Əqil Mehdiyev, Əli Xəlfəzadə, Əliheydər Qənbərov, Yəmən Cəfərli, Şəfiqə Məmmədəliyeva, Məmmədtağı Sultanov, Valentina Suxova, Aleksandra Kulakova, Qurban Qasımov, Səimə Əliyeva, Hacı Mehdiyev, Hacı Tahirov, Nəsib Nəbiyev, Rəhim Bağırov, Sona Qədimova, Hüseynqulu Hüseynov, Cabbar Əliyev, Tələt Musayev, Klavdiya Simonina öz fədakar əməyi nəticəsində əhali arasında hörmət qazanmışlar.

Tanınmış cərrah Mehdi Bağırovun milli cərrahiyyənin inkişafında xüsusi yeri vardır. O, hələ Sovet hakimiyyəti dövründə Azərbaycanda "SSRİ xalq həkimi" adına layiq görülmüş nadir həkimlərdən biri idi. M.Bağırov 1941-1945-ci illər müharibəsində Berlinədək döyüş yolu keçmiş, minlərlə döyüşçünü həyata və cəbhəyə qaytarmış, ordudan tərxis olunduqdan sonra Naxçıvanda milli cərrahiyyənin bünövrəsini qoymuşdu. Yeni nəsil cərrahların yetişməsinə xüsusi önəm verən M.Bağırov hələ sovet dövründə "Mediçinskaya qazeta"da yazırdı: "Elə olur ki, insan öz xizəyinə minmir. Hər kəsə əməliyyat edən cərrah qisməti verilməyib. Çox kədərlidir ki, bəzi xəstəxanalarda əməliyyatların böyük hissəsini rəhbər həkimlərin özləri edirlər. Bizdə isə gənc cərrahlar məndən çox əməliyyatlar aparırlar. Mən onlara assistentlik etmişəm və onları qorumuşam. İstəyirəm, yaşlı həmkarlarıma bir şey xatırladam: yanınızda olanları öyrətməyə tələsin. Gənclərə isə bir gün də praktikasız olmayın, – deyirəm. Bunsuz cərrah yoxdur".

Xalq arasında böyük nüfuzu olan M.Bağırov hələ 1959-cu ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, müxtəlif ordenlərlə təltif edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyəsi və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə 2005-ci ildə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar həkimi, SSRİ xalq həkimi M.Bağırovun anadan olmasının 90 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilmiş və konfransın materialları kitab şəklində çap olunmuşdur.

Səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ulu öndərimiz Azərbaycana rəhbərlik etdiyi dövrlərdə səhiyyənin inkişafına böyük diqqət və qayğı göstərmiş, səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: ***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".***

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə, ötən əsrin 70-80-ci illərində səhiyyə sahəsinin inkişafı ilə bağlı tədbirlər kompleksinin həyata keçirilməsində mövcud tibbi obyektlərin abadlaşdırılması, yeni səhiyyə ocaqlarının tikilməsi, əhalinin kütləvi dispanser qeydiyyatına alınması və sahə həkimlərinin işinin fəallaşdırılması məsələlərini ön plana çəkmiş, profilaktik təbabətin tələbatına uyğun olaraq bu sahədə işçilərin ixtisas səviyyəsinə verilən tələblərin artırılması həmin illərdə səhiyyə qarşısına qoyulmuş təxirəsalınmaz vəzifələrə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-cərrahı, tibb üzrə fəlsəfə doktoru Sabir Novruzov 1984-cü ildə Moskvada çıxan nüfuzlu "Sovetskoe zdravooxranenie" jurnalının 9-cu nömrəsində Naxçıvan MSSR-in səhiyyəsini belə əks etdirirdi: "Qoca Şərqin qapısında mayak kimi parlayan Naxçıvan bu gün bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də hər bir müsəlman ölkəsi üçün nümunədir. Muxtar respublikada 5 şəhər, 2 şəhərtipli qəsəbə, 235 kənd vardır. 1914-1917-ci illər ərzində respublika ərazisində cəmi 20 çarpayılıq 3 xəstəxana, 3 feldşer-mama məntəqəsi və 3 əczaxana fəaliyyət göstərirdi. Səhiyyə sahəsində isə 5 həkim, 8 feldşer, 3 mama-ginekoloq işləyirdi. Bir həkim 31466 nəfərə xidmət edirdi, 7161 nəfərə isə 1 çarpayı düşürdü. Yaşayış yerlərindəki antisanitariya vəziyyəti, tibbi xidmətin aşağı səviyyəsi və sanitariya mədəniyyətinin formalaşmaması əhali arasında xolera, tif, malyariya, traxoma, vərəm və digər xəstəliklərin kütləvi yayılmasına gətirib çıxardı. Əhali arasında ölüm halları 1000 nəfərə 28,8 nəfər təşkil edirdi, ölüm hallarının ən çox müşahidə edildiyi hallar isə yenidoğulmuşlar arasında baş verirdi. O dövrdə hər 1000 yenidoğulmuş körpədən 300-ü həyatını itirirdi. Hal-hazırda səhiyyə sahəsində muxtar respublikada 20 şəhər xəstəxanası və 1720 çarpayılıq dispanser, 680 çarpayılıq kənd sahə xəstəxanası, doğum evi, şəhər poliklinikası, 13 kənd həkim ambulatoriyası, 141 feldşer-mama məntəqəsi, 30 çarpayılıq uşaq evi, 50 çarpayılıq uşaq istirahət mərkəzi, 7 sanitar-epidemioloji mərkəz, qanköçürmə mərkəzi, 2 təcili tibbi yardım mərkəzi, məhkəmə-tibbi ekspertizası və sanitar maarifi evi fəaliyyət göstərir. Bu tibb təşkilatlarında 637 həkim və 1959 orta tibb işçisi çalışır. Əhalinin hər on min nəfərinə 25 həkim, 78 orta tibb işçisi düşür. Həkimlərin peşəkarlıqlarını artırmaq məqsədilə onlar Bakı, Moskva, Leninqrad, Kiyev, Xarkov, Kazan, Zaparojye, Minsk, Alma-Ata şəhərlərinin müxtəlif xəstəxana və klinikalarına ixtisasartırma kurslarına göndərilirlər. Orta tibb işçiləri isə tibbi və əczaçılıq təhsillərini daha da təkmilləşdirmək üçün Bakı Tibb Məktəbində və Naxçıvanda Heyran xanım adına Tibb Məktəbində kurslardan keçirlər. Naxçıvanda anaların və uşaqların sağlamlığının qorunmasına da böyük diqqət yetirilir. Respublikada hər il mama-ginekoloji və pediatr peşələrinin tibbi xidməti dairəsi genişlənir və yaxşılaşır. Hazırda analara və uşaqlara tibbi xidmət göstərilməsi üçün doğum evi fəaliyyət göstərir. Burada doğum bölməsi 240 çarpayıdan, uşaq xəstəxanası və bölməsi isə 520 çarpayıdan ibarətdir. Sanitar xidmətdə də inkişaf nəzərə çarpır. Keçirilən tədbirlər nəticəsində bir sıra yoluxucu xəstəliklər – malyariya, traxoma, difteriya və başqa xəstəliklər çox aşağı səviyyəyə düşmüşdür".

Bütövlükdə, 1969-1999-cu illərdə Naxçıvan Muxtar Respublikasında 1156 yerlik xəstəxana, növbədə 1045 nəfər qəbul edə biləcək poliklinika və ambulatoriyalar tikilmişdir ki, bu da ulu öndərimiz tərəfindən əsası qoyulmuş genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasının əyani ifadəsidir.

Səksəninci illərin sonlarında muxtar respublikamızda yaranmış vəziyyət digər sahələr kimi, səhiyyə sisteminə də öz mənfi təsirini göstərmişdir. Məhz bu dövrdə – doxsanıncı ilin yayında xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlməsi bu diyarı onu gözləyən bəlalardan qurtarmış, əhalinin inam və mübarizəsinə güc və qüvvət vermişdir. Milli azadlıq hərəkatının vüsət aldığı ilk dövrlərdə ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışı və bu proseslərə dəstək verməsi, sonradan isə muxtar dövlətin başçısı kimi hərtərəfli fəaliyyəti Naxçıvanın muxtariyyət statusunun saxlanılması, bölgənin işğaldan qorunması, muxtar respublikanın beynəlxalq səviyyədə səsinin eşidilməsində mühüm rol oynamışdır.

***Bu gün özünün 90 illik muxtariyyət yubileyini istər siyasi, istərsə də iqtisadi sahədə qazandığı uğurlarla qeyd edən Naxçıvan xalqımızın qədim dövlətçilik ənənələrinə əsaslanaraq yeni inkişaf yoluna qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublika hərtərəfli inkişaf edir, əsl intibah dövrünü yaşayır. Həyatın bütün sahələrində olduğu kimi, səhiyyə sistemində də baş verən əsaslı dəyişikliklər bu gün sürətlə və ardıcıl davam etdirilir.***

(ardı var)

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı***

*Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsində 2014-cü ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı yığıncaq keçirilmişdir. Yığıncağı Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov açaraq məruzə ilə çıxış etmişdir.*

## Arxiv işçiləri yarımilə yekun vurublar



Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasının arxiv orqanları cari ilin ilk 6 ayında öz işlərini "Milli Arxiv Fondu haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Respublikasında Arxiv işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli Fərmanını, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin əmr, sərəncam və göstərişlərini rəhbər tutaraq fəaliyyət göstərmişlər.

2014-cü ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Şahbuz və Babək rayon dövlət arxivlərində kompleks yoxlamalar aparmışdır. Yoxlamaların məqsədi rayon dövlət arxivlərinin mühafizəsində olan kağız əsaslı dövlət sənədlərinin bərpa edilməsi, işlərin tikilməsi və cildlənərək qaydaya salınması, mühafizə olunan sənəd materiallarının mövcudluğu vəziyyətinin araşdırılması, yoxlama aktlarının tərtibi, uçot və kargüzarlıq işlərinin arxivlərin əsas iş qaydalarına uyğun aparılması, pasportlaşma və sənədlərin idarə, müəssisə və təşkilatlardan qəbulu və sair işlərin düzgün aparılması üçün əməli-metodik köməklik edilməsi, həmçinin mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün lazımi tövsiyə və məsləhətlərin verilməsi olmuşdur.

Bildirilmişdir ki, 2014-cü ilin ilk 6 ayında "Naxçıvan teatrı, məqalələr və xatirələr" adlı kitab tərtib edilərək çap edilmişdir. Həmçinin muxtar respublikanın 90 illik yubileyi ilə əlaqədar tərtib edilmiş tədbirlər planına əsasən, bu ilin ilk 6 ayında Naxçıvanın tarixi ilə bağlı tarixi sənədlər əsasında arxiv əməkdaşları tərəfindən elmi məqalələr yazılaraq respublika mətbuatında və yerli qəzetlərdə çap edilmişdir.

Naxçıvan Tibb Məktəbinin tarixi və fəaliyyəti ilə əlaqədar "Naxçıvan Tibb Məktəbi tarixindən" və "Naxçıvan Qəza məktəbləri tarixindən" adlı monoqrafiyaların hazırlanması əsasən başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsində sərgi təşkil edilmiş və may ayında yubiley münasibətilə elmi-praktik konfrans keçirilmişdir.

Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi və 7 rayon dövlət arxivi bəhs olunan dövrdə tapşırılan vəzifələrin yerinə yetirilməsinə səy göstərmiş, sənəd materiallarının tikilməsi, cildlənməsi, bərpası üzrə tapşırıqları artıqlaması ilə yerinə yetirmişlər.

İşdə buraxılan nöqsanlardan da danışan idarə rəisi qısa zamanda həmin nöqsanların aradan qaldırılmasının zəruriliyini yığıncaq iştirakçılarının nəzərinə çatdırmışdır.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktor əvəzi Mürsəl Cəfərovun, şöbə müdiri Zakir Hacıyevin, Kəngərli, Şərur, Culfa, Babək rayonlarının dövlət arxivlərinin müdirləri İdris İbrahimovun, Ədalət İmanovun, Fatma Abbasovanın, Vilayət Qasımovun çıxışları olmuşdur.

Yığıncağa Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**



**...Avtomobilimiz dağın sinəsi ilə çəkilmiş yolla irəlilədikcə adama elə gəlir ki, qartal yuvasına qalxırsan. Hündürlüyə qalxdıqca Şahbuz rayonunun bu qol üstündəki kəndləri aşağıda qalır. Bu isə Ağbulağın ən gözəl mənzərələrindən biridir. Bu mənzərəyə baxmaqdan əsla doymursan. Düşünürsən ki, belə yerdə "hər kim yüz il yaşamasa, günah onun özündədir". Şair istəyir ki, bu gözəlliklərə şeir qoşsun, bəstəkar sorağındadır ki, nəğmə bəstələsin, rəssam gərəkdir ki, bu gözəlliyi tabloya çevirsin. Ağbulaq kəndinə gedən yolun sağında yerləşən çeşmənin suyu qışda isti, yayda isə buz kimi sərin olur. Bura gələn qonaqlar bu bulağın suyundan içir, bir an nəfəslərini dərir və ilan kimi qıvrılan dağ yolları ilə kəndə qalxırlar. Biz də bu ənənədən kənara çıxmadıq, bulağın suyundan içib yolumuza davam etdik.**

## Ağbulaq İstirahət Mərkəzində bir gün...





...Budur, Ağbulaq İstirahət Mərkəzindəyik. Mərkəzdə qələbəlik hökm sürürdü. Öyrəndim ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi Ağbulaq İstirahət Mərkəzində muxtar respublikanın fəal və idmançı gənclərinin 7 günlük istirahət düşərgəsini təşkil edib. Ağbulaq İstirahət Mərkəzi haqqında ilk olaraq məhz bu gənclərdən öyrəndik. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının əməkdaşı Cəbi Quliyevlə həmsöhbət oluruq. Onun dediklərindən:

– Ağbulaq İstirahət Mərkəzində mən və mənim kimi bir çox gənc ilk dəfədir, olur. Amma deyə bilərəm ki, burada özümüzü heç də yad kimi hiss eləmədik. Mərkəz kollektivinin mehriban davranışı, səmimi söhbətləri diqqətimizi çəkdi. Yaradılan yüksək şəraitdən və göstərilən xidmətdən gənclər olduqca razıdırlar. Onu da qeyd edim ki, bu minvalla muxtar respublikanın fəal gəncləri ilə tanış olmaq imkanımız oldu. Söhbətimizə gənclərdən Xəyal Əliyev qoşulur.

– Mən Naxçıvan Dövlət Universitetinin hüquq ixtisası üzrə birinci kurs tələbəsiyəm. İstirahətimiz çox yaxşı təşkil olunub. Ən çox xoşuma gələn burada Azərbaycan bədii filmlərinin nümayiş olunmasıdır. Ağbulaq İstirahət Mərkəzinin kollektivi də biz gənclərin asudə vaxtının səmərəli təşkilində əlindən gələni əsirgəmir.

Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşı Anar Əzizovun dediklərindən:

– Ağbulağa birinci dəfədir, gəlirəm. İstirahət mərkəzində yaradılan şərait ürəyimcədir. Artıq bir neçə gündür, burdayıq. Çox gözəl istirahət edirik. Burada "Heydər Əliyev və Azərbaycan gəncliyi", "İdman insanın sağlamlığına və mənəvi kamilliyinə xidmət edir", "Naxçıvanın muxtariyyəti və gənclik" mövzularında keçirilən seminarlarda iştirak etdik. Batabat Astrofizika Rəsədxanasında və Batabat yaylağında, Şahbuz rayonu ərazisindəki tarixi yerlərdə olduq. Hər günümüz maraqlı və əyləncəli keçir.

Gənclər arasında orta məktəb şagirdləri də var. Onlardan Məcid Bayramzadə ilə də söhbətləşdik:

– Mən Babək rayonunun Şıxmahmud kənd tam orta məktəbinin X sinif şagirdiyəm. Güləş üzrə muxtar respublika çempionu olmuşam. Burda olduğum üçün çox sevincliyəm. Hər dəfə tətildən qayıdanda "Tətilimizi necə keçirdik?" mövzusunda inşa yazırıq. Bu dəfə inşamda Ağbulaq İstirahət Mərkəzi haqqında yazacağam. Burada ən çox xoşuma gələn mini-futbol meydançasının olmasıdır. Doyunca futbol oynadıq.

Buradakı gənclər arasında müxtəlif təşkilatlarda çalışan gənclər çoxluq təşkil edirdi. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Gülnar Yüzbaşıyeva, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Elçin Əliyev, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı Araz Mustafayev və başqaları burada yaradılan şəraitdən ürəkdolusu danışdılar. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının əməkdaşı Tural Həsənlinin dediklərindən:

– Bir gənc olaraq Naxçıvan Muxtar Respublikasının ən ucqar dağ kəndində yaradılan möhtəşəm istirahət mərkəzinə hər dəfə gələndə çox sevinirəm. Artıq ikinci dəfədir ki, burada oluram. Burada hər şey tam ürəyimcədir. Rahat şəraitdə dincəlmək, vaxtı səmərəli keçirmək üçün hər cür şərait yaradılıb. Ağbulağın çox gözəl, təmiz havası ilə həmahəng olan füsunkar təbiətinin fonunda burada qurulan müasir infrastruktur valehedicidir. Sanki dağ başında bir möcüzə yaradılıb. Bir rəssam olaraq buradakı bu mənzərələr məni ilhama gətirir. Xidmətin yüksək səviyyədə təşkil edilməsi və hər bir məsələyə diqqətlə yanaşılması istirahətimizin daha mənalı keçməsinə şərait yaradır. Ona görə də mən belə hesab edirəm ki, bura gələn bir daha gəlmək istəyər. Çünki ən azından təbiətin gözəlliyindən doymaq mümkün deyil. Buna göstərilən yüksək xidmət və istirahət üçün yaradılan şəraiti də əlavə etsək, onda Ağbulağın bir cazibə mərkəzinə çevrildiyini demək mümkündür.

Gənclərdən ayrılıb burada istirahət edən ailələrə yaxınlaşıram. Ailə başçısı Azər Hacıyev deyir:

– Biz Bakı şəhərində yaşayırıq. Naxçıvanda qohumlar olduğu üçün tez-tez gəlirik. Keçən yayda Ağbulağa birgünlüyə gəldim. Buranı çox bəyəndim. Bu yay ailəmlə gəlməyi qərarlaşdırdım. Onların da ürəyincə oldu. Çox pul xərcləyib xaricə getməkdənsə, buralarda istirahətə üstünlük verirəm. Ağbulağın təmiz havası insana mənəvi rahatlıq verir. Xidmət isə söz ola bilməz. Otaqlarda istirahət üçün hər cür şərait yaradılıb.

Xarici vətəndaşlardan Kraav Heiqo isə deyir:

– Mən Estoniya vətəndaşıyam. İş üçün Naxçıvandayam. Fürsətdən istifadə edib buraya gəldim. Bir sözlə, möhtəşəmdir.

Qeyd edək ki, Ağbulaq muxtar respublikada kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsidir. Ağbulaq İstirahət Mərkəzinin tikintisinə 2011-ci ildə başlanmışdır. Üç yaşayış korpusundan və bir yeməkxana binasından ibarət olan mərkəz ötən ilin iyul ayında istifadəyə verilmişdir. Açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Ağbulaq kəndində istirahət mərkəzinin yaradılması təsadüfi deyil. Hələ keçmiş Sovetlər Birliyi dövründə bu kənddə məktəblərin yay düşərgələri təşkil olunurdu. Bu, o dövrdə həyata keçirilən mühüm tədbirlərdən biri idi. Bu gün müstəqil Azərbaycanda da xidmət sahələrinin inkişafına, yeni istirahət komplekslərinin tikilməsinə və turizm infrastrukturunun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolun dövlət başçısı tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda hərtərəfli sosial-iqtisadi inkişafa nail olunmuş, sabitlik təmin edilmişdir. Bütün bunlar ölkəmizdə yay və qış turizminin inkişafını daha da sürətləndirir. Ağbulaq İstirahət Mərkəzində də yay və qış turizminin inkişafı üçün əlverişli şərait vardır".***

Bəli, Şahbuz rayonunun ucqar dağ kəndi olan Ağbulaq geniş turizm potensialına malik olan yaşayış məntəqələrindən biridir. Təmiz havası, saf suyu və ekoloji təmiz məhsulları, əlverişli iqlim şəraiti kənddə turizmin inkişafı üçün böyük imkanlar açmışdır. Hazırda turizm ən çox gəlir gətirən xidmət sahələrindən biridir. Müasir dövrdə turistlər ən çox kəndlərdə, təbiət ərazilərində istirahətə üstünlük verirlər. Muxtar respublikamızın zəngin kənd və sağlamlıq-müalicə turizm potensialı olan yaşayış məntəqələrində belə müasir infrastrukturun yaradılması turizm sektorunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Mərkəzlə bizi yaxından tanış edən mərkəzin icraçı direktoru Novruz Novruzov burada keçirilən tədbirlərdən də söz açdı. Bildirdi ki, mərkəz mühüm tədbirlərə ev sahibliyi edir. Elə bu günlərdə mərkəzdə keçirilən "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda Beynəlxalq Konfrans belə mühüm tədbirlərdəndir. Bundan başqa, burada gənclərin yay düşərgələri təşkil olunur.

Ağbulaq İstirahət Mərkəzində olduğumuz bir gün ərzində kiminlə həmsöhbət oldumsa, burada yaradılan şəraitdən razılıqla danışdı. Ağbulaqdan ayrılanda artıq saat 19 radələri idi. Buradakı sərin və təmiz hava yayın bu isti günlərində payız fəslini xatırladırdı. Bakıdan dəvət olunmuş müğənnilərin səsləndirdikləri musiqi nömrələri belə havada daha xoş təsir bağışlayırdı. Bu, burada dincələn gənclərin, qonaqların təbəssümlü çöhrələrindən də hiss olunurdu…

✍ **Sara ƏZİMOVA**

*Yeni nəşrlər*

## "Naxçıvan XIX əsr rus mənbələrində" adlı kitab çapdan çıxıb

***Naxçıvanın XIX əsr tarixinin öyrənilməsində rusdilli mənbələr əhəmiyyətli rol oynayır. Bu günlərdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun yeni çapdan çıxmış kitabı məhz XIX əsr rus mənbələrində Naxçıvan mövzusuna həsr olunub. AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarına əsasən çap olunan kitabın elmi redaktoru akademik İsmayıl Hacıyev, rəyçiləri isə tarix elmləri doktoru Cəfər Cəfərov və tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəylidir.***




Monoqrafiyada XIX əsrə aid rus mənbələrinin geniş təhlili verilmiş, regionun siyasi, sosial-iqtisadi, mədəni mənzərəsi, hərbi-siyasi əlaqələri və digər aktual məsələlər haqqında geniş məlumatlar öz əksini tapmışdır. Müəllif rus tədqiqatçılarının və hərbçilərinin məlumat və məktublarına əsaslanmaqla Naxçıvanın rus qoşunları tərəfindən tutulmasını, general Yermolovun İrana səfəri zamanı onun Naxçıvanda olmasını, Kalbalı xanla görüşməsini tarixi faktlara əsaslanmaqla şərh edir. Qeyd olunur ki, özünün zəngin və qədim tarixi, coğrafi mövqeyinə, mühüm ticarət əhəmiyyətinə görə Naxçıvan Rusiya imperiyasının qabaqcıl ziyalılarının – tarixçilərin, etnoqrafların, diplomatların, iqtisadçıların, səyyahların diqqətini cəlb etmişdir. Onların içərisində V.Qriqoryev, mənşəcə fransız olan İ.Şopen, diplomat A.S.Qriboyedov, qafqazşünaslardan S.P.Zelinski, N.Engelqart, K.A.Nikitin və başqaları xüsusi yer tuturlar. Monoqrafiyada ilk dəfə olaraq Naxçıvanın tarixi XIX əsr rus mənbələri əsasında hərtərəfli araşdırılmışdır. Bunun üçün müəllif arxiv sənədlərindən, tarixi və elmi ədəbiyyatlardan, statistik toplu, məcmuə, dövri mətbuat materiallarından, dövlət qərar və fərmanlarından istifadə etmişdir.

Monoqrafiyanın birinci fəsli "XIX əsr rus mənbələri Naxçıvanın hərbi-siyasi vəziyyəti haqqında" adlanır. Bu fəsildə müəllif Naxçıvanın işğal edilməsinin rus mənbələrində əksindən, bu mənbələrdə Naxçıvanın siyasi vəziyyəti və hərbi-siyasi əlaqələri haqqında verilən məlumatlardan, Naxçıvanın ruslar tərəfindən işğalı və ermənilərin bu əraziyə köçürülməsindən bəhs edir. Tədqiqatçı Naxçıvanın işğalından sonra ermənilərin Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana köçürülməsinin çar Rusiyasının Qafqaz üçün əvvəlcədən hazırlanmış strateji planı olduğunu tarixi faktlarla sübuta yetirmişdir.

"XIX əsr rus mənbələri Naxçıvanın sosial-iqtisadi inkişafı haqqında" adlanan ikinci fəsildə Naxçıvanın iqtisadi və ticarət əlaqələri kimi məsələlərə diqqət yetirilmişdir. Müəllif çar Rusiyasının bölgəni özünün əsas xammal mənbəyi və bazasına çevirməyə çalışdığını qeyd edir. İşğaldan sonra Naxçıvanın sosial həyatında baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklikləri rus mənbələrinin verdiyi faktlar əsasında monoqrafiyada əks olunur.

Monoqrafiyanın üçüncü fəsli "XIX əsr rus mənbələri Naxçıvanın mədəniyyəti haqqında" adlanır. Burada Naxçıvanın öyrənilməsi istiqamətində atılan addımlar, rus mənbələrində Naxçıvanın tarixi-coğrafi şəraiti, tarixi memarlıq abidələri və etnoqrafiyası haqqında geniş məlumatlar verilir. Rus mənbələrinin Naxçıvanda əhalinin tərkibi haqqında verdiyi məlumatlar müqayisə edilir, yeri gəldikcə təhrif olunmuş faktlara tənqidi münasibət bildirilir.

Məlumat üçün qeyd edək ki, monoqrafiyanın yazılması zamanı, ümumilikdə, 180 ədəbiyyatdan istifadə edilmişdir ki, bunun da 100-dən çoxu məhz rus dilində olan elmi ədəbiyyatlar, tarixi mənbələr, sənədlər və arxiv materiallarıdır.

✍ **Elnur KƏLBİZADƏ**

### *İtmişdir*

Babək rayonunun Cəhri kənd sakini Cəfərov Qambay Yəhya oğlunun adına olan JN-2134B inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Cəhri kənd sakini Cəfərov Qambay Yəhya oğlunun adına olan JN-2134A inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Rzayeva Aybəniz Şirin qızının adına olan 6331 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər sakini Əliyeva Laura Əkbər qızının adına Azərbaycan Dövlət Neft Akademiyası tərəfindən verilmiş 451167 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin dosenti **ABBAS MEHDİYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Xanəli Kərimli, Tofiq Əliyev və Nizami Quliyev iş yoldaşları **ABBAS MEHDİYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Elnur Kəlbizadə**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 612**